**Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi**

Bu xidmət vasitəsilə sığortaedənlər məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsini həyata keçirə bilərlər. Elektron xidmətdən istifadə etmək üçün https://www.e-gov.az - "Elektron Hökumət Portalı"na (eləcə də Hökumət Ödəniş Portalına) daxil olaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim olunan elektron xidmətlərin siyahısından *"Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi"* elektron xidmətini seçmək lazımdır.




Açılan pəncərədə "Hesab nömrəsi" xanasına sığortaedənin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DSMF-dəki uçot nömrəsini yazaraq "Axtar" düyməsini sıxmaq lazımdır.




Növbəti pəncərədə aşağıdakı ödəniş növlərindən birini seçərək **| əlavə et |** düyməsini sıxmaq lazımdır:



Ödəniş məbləği xanasına müvafiq məbləği daxil etdikdən sonra bank kartı barədə məlumatları daxil edərək məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənişi təmin edilir.

